# HƏRBİ HİSSƏNİN QABAQCIL BÖLÜYÜ DÖYÜŞ TAPŞIRIQLARINI UĞURLA YERİNƏ YETİRİR

***Daxili Qoşunların 16075 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi bölməsi 2016-cı ilin 1-ci rübünün yekunlarına görə, yüksək döyüş hazırlığına malik və hərbi intizamın vəziyyətinin qorunub saxlanılmasında fərqlənən bölüklərdən biridir.***

Xidmətin keyfiyyətli təşkili istiqamətində görülən işlər barədə bölük komandiri baş leytenant Azər Behbudov danışdı. Vəzifəsinin məsuliyyətini dərindən dərk edərək, işinə olduqca ciddi yanaşan komandir istənilən sahədə uğur əldə etmək üçün ilk növbədə məqsədyönlü olmağın vacibliyini qeyd etdi. Bildirdi ki, şəxsi heyətdə nəzəri və praktiki



biliklərin, eləcə də dözümlülük keyfiyyətlərinin diqqət yetirilən əsas məsələlərdən biridir. Şəxsi heyətin səhra çıxışlarına və atıcılıq təlimlərinə cəlb olunduğunu söyləyən baş leytenant A.Behbudov keçirilən məşğələlərin Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanının müvafiq direktivinə və tədris proqramına əsasən təşkil olunduğunu və bu istiqamətdə əvvəlcədən məşğələ cədvəllərinin tərtib edildiyini də vurğuladı:

*"Məşğələlərin tam keyfiyyətlə keçirilməsinə və mənimsənilməsinə, həmçinin tabeliyimdə olan hərbi qulluqçuların xidməti fəaliyyətinə, nizam-intizamına, qəflətən qarşıya çıxa biləcək hər hansı bir döyüş tapşırığının uğurla yerinə yetirilməsinə ciddi nəzarət olunur. Əsas etibarilə xüsusi-taktiki, ssenarili və gecə təlimləri, həmçinin atəş hazırlığı üzrə təlimlər mütəmadi olaraq vaxtlı-vaxtında keçirilir".*



Təşkil olunan məşğələlərin keyfiyyətli keçirilməsində bölmə komandirinin müavini baş leytenant Emil Nadirovun əməyini xüsusi vurğulamaq olar. O, bölmədə qısa müddət xidmət etməsinə baxmayaraq, şəxsi heyətin dərin rəğbətini qazanıb.

Qrup tərkibində keçirilən məşğələlərə manevr qrupunun komandiri gizir Mübariz Cabbarov nəzarət edir. Bölmə komandiri tərəfindən müsbət xarakterizə olunan gizir M.Cabbarov həm məsuliyyəti, həm də fiziki imkanlarına görə fərqlənən hərbi qulluqçudur.

Hərbi qulluqçularda fərdi məsuliyyətin artırılması, vətənə, dövlətə sədaqət hissinin aşılanması ilə yanaşı, onların mənəvi-psixoloji durumunun daim yüksək səviyyədə olması da vacib şərtlərdən biridir. Sözsüz ki, yüksək döyüş hazırlığından danışarkən ilk olaraq şəxsi heyətin dözümlülük keyfiyyəti və mənəvi-psixoloji durumun qənaətbəxş olması göz önünə gəlir. Bu sahədə bölmə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Emin Cəlilovun böyük zəhmətinin olduğunu qeyd etmək yerinə düşər. O, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, tərbiyəvi iş və məlumat saatlarının keçirilməsinə nəzarət edərək, eyni zamanda onların hər birinə fərdi şəkildə yanaşır. Bu da şəxsi heyət arasında ruh yüksəkliyinin yaranmasında mühüm əhəmiyyət kəsb edir.

Aparılan kompleks tədbirlərin nəticəsidir ki, Siyəzəndə ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə 45 günlük döyüş xidmətinə cəlb olunan xüsusi vasitələrin tətbiqi bölməsi qüsursuz şəkildə xidmət göstərib. Bölüyün şəxsi heyətinə uğurların davamlı olmasını diləyir, hər zaman birinciliyi qoruyub saxlamağı arzulayırıq.

**leytenant N.Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

# VƏTƏNƏ XİDMƏT ŞƏRƏFLİDİR

***Baş leytenant Malik Quliyev özünə qarşı tələbkar, xidmətə, vəzifə borclarının icrasına son dərəcə məsuliyyətlə yanaşan, nizam-intizamlı zabitlərimizdəndir.***



O, 1980-ci il iyunun 8-də Qazaxıstanın Canbul vilayətinin Çu rayonunda anadan olub. Kiçik yaşlarında ailəsi ilə birlikdə Azərbaycana gələn Malik orta təhsilini başa vurduqdan sonra, Daxili Qoşunların Gəncədə yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub.

2000-2005-ci illərdə Bakı Dövlət Universitetinin "Tarix" fakültəsində ali təhsil alıb.

2006-cı ildən etibarən qoşunların sıralarında olan hərbi qulluqçumuz hazırda 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirir.

Xidmətə başladığı ilk günlərdən bilik və bacarığı sayəsində hissə komandanlığının, həmçinin şəxsi heyətin dərin rəğbətini qazanıb. Hazırda dəstədə komandirinin xüsusi hazırlıq üzrə müavini vəzifəsində xidmət edir.

Məsuliyyət hissini xidmətin əsası kimi dəyərləndirən baş leytenant M.Quliyev verilən tapşırıqları keyfiyyətlə yerinə yetirərək tabeçiliyində olan bütün hərbi qulluqçulara sözün əsl mənasında nümunə olmağı bacarır. O, döyüş hazırlığının qorunub saxlanılması üçün bütün lazımi tədbirləri həyata keçirir. Təlimlərdə şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə tələbkarlıq göstərməklə yanaşı, hər bir hərbi qulluqçuya fərdi yanaşır, qayğısına qalır.

Hələ yeniyetməlik dövründən əlbəyaxa döyüş növləri ilə məşğul olan hərbi qulluqçumuz Silahsız Özünümüdafiə və Əlbəyaxa üzrə yarışlarda dəfələrlə Daxili Qoşunları yüksək səviyyədə təmsil edərək birinciliyi qazanıb. O, həmçinin 2011-2012-ci illərdə Çin Xalq Respublikasının Hərbi İdman Akademiyasını da fərqlənmə diplomu ilə bitirib.

Vətənə xidmətin şərəfli olduğunu deyən baş leytenant M.Quliyev düşünür ki, əsl hərbçi verilən tapşırığı nəyin bahasına olursa-olsun vaxtında və keyfiyyətlə yerinə yetirməlidir. Öz xidməti ilə bu fikirləri sübut etməyi bacaran zabitimizə yeni-yeni uğurlar, müvəffəqiyyətlər arzulayırıq.

**leytenant N.Ağayeva**

*METODİKİ VƏSAİT*

# ZABİTİN PEDAQOJİ MƏDƏNİYYƏTİ

***Azərbaycan zabitinin şəxsiyyətini formalaşdıran vacib amillərdən biri onun pedaqoji mədəniyyətidir. Zabitin pedaqoji mədəniyyəti – hərbçilərin hissə və bölmələrdə tərbiyə edilməsində, döyüş hazırlığının yüksəldilməsində əvəzsiz rol oynayır. Zabitin pedaqoji mədəniyyəti onun şəxsi mədəniyyətinin tərkib hissəsi olmaqla, dünyagörüşünün, düşüncə tərzinin və intellektual biliyinin səviyyəsindən asılıdır.***

**Zabitlər o zaman müvəffəqiyyət qazanırlar ki, daim öz üzərində çalışır, öz dünyagörüşünü, hərbi biliyini artıraraq inkişaf etdirir.**

**Zabit dövlətin maraqlarını müdafiə edən, Ana Vətənin keşiyində duran bir şəxsiyyətdir.**

Zabit ciddi hərbi qaydaların qoruyucusudur. Onlar nizamnamələrdə qoyulan tələblərin sözsüz yerinə yetirilməsinə cavabdehdirlər. Ona görə də bütün hissə və bölmələrdə hər bir zabit ilk xidmət günündən etibarən əsgərlərə ordu nizamnamələrinin tələblərini başa salır, bütün əxlaq və hüquq normaları çərçivəsində özlərini idarə etməyi öyrədirlər. Eyni zamanda, zabit nümunəvi davranışı ilə tabeliyində olan şəxsi heyətə dözümlülük, prinsipiallıq, işgüzarlıq, iradəlik, vətənpərvərlik keyfiyyətlərini aşılayır və inkişaf etdirir.

**Təcrübəli hərbçilərdən biri öz qeydlərində xüsusi olaraq vurğulamışdır ki, *"Hər bir hərbçi – xüsusən də zabit öz hərbi biliyini, təhsilini artırmalı və daim inkişaf etdirməlidir. Əgər hər hansı hərbçi biliyini, təhsilini artırmırsa, öz üzərində çalışmırsa, yalnız köhnə biliyi ilə kifayətlənirsə, həmin zabitin bilik səviyyəsinin məhdudluğu onu sıxışdıracaq, mühakimə edərək cəzalandıracaq".***

Yəni, təhsilini, biliyini, təcrübəsini artırmayan, fəallığını günbəgün yüksəltməyən, təşəbbüskarlıq göstərməyən zabit insani və əxlaqi keyfiyyətlərə, mədəniyyətə malik ola bilməyəcək və bununla da o, heç vaxt uğur qazanmayacaq.

**Əgər zabitin pedaqoji mədəniyyəti qənaətbəxş səviyyədə deyilsə, onun tabeçiliyində olan şəxsi heyəti idarə etməsində problemlər yaşanacaq, nizam-intizamsızlıq hökm sürəcək. Ona görə də bu cür neqativ halların qarşısını almaq üçün zabit pedaqoji mədəniyyətini formalaşdırmağa məhkumdur.**

**Orduda qanunauyğun şəkildə elə bir mürəkkəb mühit formalaşıb ki, orada bütün qüvvələr, şəxsi iradələr bir şəxsin - komandirin, rəisin tabeliyində olmalıdır. Əks halda, hərbi kollektivdə heç vaxt müvəffəqiyyət əldə oluna bilməz.**

Unutmayın ki, hər bir komandir, rəis həm də tərbiyəçidir. Tabeliyində olanlara həmişə komanda və əmrlər əsasında rəftar etsə də, özündə bütün insani, əxlaqi keyfiyyətləri daim inkişaf etdirməli, bir komandir və insan kimi öz əsgərlərinə qarşı mehriban olmalı, ata qayğısı göstərməlidir. Komandirlər şəxsi nümunə göstərərək tabeliyində olanlara daim güclü tərbiyəvi təsir etməlidirlər. Təcrübəli komandirlər çox düzgün olaraq qarşılıqlı münasibətlərini ordu nizamnaməsinin tələbləri əsasında qururlar.

**Bilmək lazımdır ki, əsgərin hissləri ilə oynamaq olmaz. Çünki belə münasibət həmişə qanun pozuntusuna, ümumi döyüş hazırlığının zəifləməsinə gətirib çıxarar. Əsgərin fikrinə, düşüncəsinə müsbət təsir göstərərək, onu başa salmaq, şüurlu şəkildə tərbiyə etmək lazımdır. Zabit həmişə tabeliyində olan əsgərlə, çavuşla, gizirlə davranışında onlara qardaş, dost, yoldaş olmalı, hər birinə insani, əxlaqi münasibət bəsləməlidir.**

Əgər komandir öz tabeçiliyində olan əsgərləri təhqir edirsə, nüfuzdan salırsa, onun hissləri ilə oynayırsa, onda xoşagəlməz hadisələr də baş verər. Bəzən belə zabitin ani olaraq vəzifə borcunu unutması fəlakət və cinayətlərlə nəticələnir. Tərbiyə işinin bütün forma və metodlarından düzgün istifadə edərək əsgərin ailə vəziyyəti ilə yaxından tanış olmaq, onlara qarşı diqqəti gücləndirmək hərbi kollektivin nüfuzunu artırar, müsbət insani münasibətlər formalaşdırar, Vətənə sədaqətli xidmət hissini artırar.

**Döyüş hazırlığı vaxtı və döyüş şəraitində bütün komandirlərin tabeçiliyində olanlara qarşı inam amili də mühüm xarakter daşıyır. İnam hissinin formalaşdırılması düşmən üzərində qələbə çalmaqda ən vacib şərtlərdən biri sayılır. Bütün hallarda zabitlər və tabelikdə olanlar bir-birinə əsaslı inanmalı, şəxsiyyətinə hörmət etməli, ən çətin anda belə bu inam özünü doğrultmalıdır.**

**Komandirlərin, rəislərin tabeliyində olanlara inamı müxtəlif vəziyyətlərdə və hallarda yoxlanılmalı, ayrı-ayrı vaxtlarda özünü göstərməlidir.**

Əsgər, çavuş, gizir və ya zabit bütün hallarda düşdüyü çətin vəziyyətdən baş çıxarmalı, düzgün yol seçilməli və xidməti tapşırığı yerinə yetirəcəyinə həmişə inanmalıdır. Qarşılıqlı münasibətin mühüm formalarından biri rəisin (komandirin) tabeliyində olanlara qarşı xeyirxahlığıdır. Rəisin xeyirxah münasibəti bütün tabeliyindəkiləri, xüsusən əsgəri namuslu, düzgün, fəal, intizamlı olmağa sövq edir. Bundan əlavə, əsgərin öz səhvini başa düşərək etiraf etməsi, bu və ya digər nöqsanı aradan qaldırmaq təşəbbüskarlığı gözəl əxlaqi keyfiyyətlər doğurur.

Beləliklə, komandiri xeyirxah münasibəti nəticəsində tabeliyində olanların hamısı onun ciddi tələbkarlığını da düzgün qiymətləndirir. Komandirin, rəisin nizamnamə tələblərinə zidd olan qeyri-insani, qərəzli münasibəti isə uzun müddət əldə edilmiş tərbiyə işinin həmişə effektivliyini itirir, alt-üst edir, puça çıxarır. **Xeyirxah münasibət bütün hallarda nizamnamə çərçivəsində olmalıdır.** Tabeliyindəkilərə qarşı təkəbbürlü olmaq qarşılıqlı münasibətlərdə xoşagəlməz hal yaradır, kobud hərəkətlərə səbəb olur. Bu o zaman baş verir ki, komandirlər kollektivdə və şəxsi münasibətlərdə nizam-intizamı möhkəmləndirmək üçün az iş aparır, tərbiyə işinin çoxsaylı forma və metodikasından səmərəli istifadə edə bilmirlər. Bütün bu nöqsanlara pedaqoji-psixoloji hazırlığı az olan və yaxud heç olmayan zabitlər yol verir. Bu isə pis nəticələrə gətirib çıxarır. Belə zabitlər məsuliyyətə cəlb olunana qədər kobud hərəkət etməklə həmişə nizamnamə qaydalarını pozurlar.

Öz vəzifə borclarını ləyaqətlə yerinə yetirmək üçün hər bir zabit şəxsi heyətlə hərbi təlim və tərbiyə işinin yaxşı qurmalı, bütün şəraitdə döyüş hazırlığını və nizam-intizamı yaxşılaşdırmalı, pedaqogika, psixologiya elminin əsaslarını öyrənməli və bilməlidir. Zabit tabeliyində olan əsgərlərin şəxsi xüsusiyyətlərini dərindən öyrənərək onlarla gözəl rəftar edir, döyüş hazırlığını yaxşılaşdırmaq məqsədilə tərbiyə işini metodiki qaydada düzgün qurur və təşkil edir.

**Bir sözlə, hər bir Azərbaycan zabiti istər sülh, istərsə də müharibə şəraitində müasir həyatla ayaqlaşmalı, daim peşə hazırlığını, hərbi biliyini təkmilləşdirməli, hərbi pedaqogika, psixologiya sahəsində dəyərli ədəbiyyatları mütaliə etməlidir.**

**Mənəvi-psixoloji hazırlıq şöbəsi**

## Allah rəhmət eləsin

12565 saylı hərbi hissənin şəxsi heyəti polkovnik İlkin Əsədova **nənəsinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların şəxsi heyəti sabiq hərbi qulluqçu **polkovnik-leytenant Rasim Cəbrayılovun** vəfatından kədərləndiyini bildirir və yaxınlarına dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti baş leytenant Asiman Həsənliyə **nənəsinin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti baş gizir Rövşən İsmayılova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

ƏSGƏR

№ 09 (475)
30 aprel 2016-cı il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BMT-nin SİVİLİZASİYALAR ALYANSININ VII QLOBAL FORUMUNUN RƏSMİ AÇILIŞINDA İŞTİRAK EDİB

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, o cümlədən dünyanın 140 ölkəsindən dəvət olunmuş qonaqlar mərasimdə iştirak ediblər.***

**BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna Bakının ev sahibliyi etməsi təsadüfi deyil. Çünki tolerantlığın məkanı, multikultural dəyərlərə sadiq olan müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir.**



2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərar qəbul edilib. Ötən ilin iyul ayında Prezident İlham Əliyev Forumun Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb.

"İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd" devizi altında keçirilən Foruma BMT-yə üzv ölkələrin dövlət və hökumət başçıları, xarici işlər nazirləri, siyasi liderlər, tərəfdaş qurumlar, beynəlxalq və regional təşkilatların nümayəndələri, özəl sektor, incəsənət, media və akademiyaların təmsilçiləri, donor təşkilatlar və fondlar daxil olmaqla, çoxlu qonaq qatılıb.

Forumun açılışında nitq söyləyən Prezident İlham Əliyev qonaqları salamlayaraq belə bir mötəbər tədbirin Azərbaycanda keçirilməsinin böyük şərəf olduğunu, ölkəmizin multikulturalizm dəyərlərini uğurla yaydığını dedi. Dövlətimizin başçısı BMT-nin Sivilizasiyalar Alyansının yaradılması təşəbbüsü ilə çıxış etdiklərinə görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və İspaniyanın keçmiş Baş naziri Xose Luis Rodrigez Sapateroya təşəkkür etdi. "Azərbaycan əsrlər boyu mədəniyyətlər və dinlərin qovuşuğunda yerləşib, ölkəmiz Şərq ilə Qərb arasında mədəni körpü rolunu oynayıb", - deyən Prezident İlham Əliyev tolerantlığın və multikulturalizmin Azərbaycanda hər zaman hökm sürdüyünü, bunun bizim böyük zənginliklərimizdən biri olduğunu və bu tarixin bizi fərəhləndirdiyini vurğuladı. Dövlətimizin başçısı dedi ki, 743-cü ildə ən qədim məscidlərdən biri Şamaxıda tikilib, torpağımızda qədim Alban kilsələri olub. Bu gün ölkəmizdəki məscidlər, katolik və pravoslav kilsələri təmir olunur və qorunur. Bu da onu göstərir ki, multikulturalizm Azərbaycanda dövlət siyasətidir.

Prezident İlham Əliyev bildirdi ki, 2008-ci ildə Azərbaycanın irəli sürdüyü təşəbbüslə Bakıda həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının bir çox tədbirləri baş tutub. Ötən il ilk Avropa Oyunları keçirilib, gələn il isə paytaxtımız İslam Həmrəylik Oyunlarına ev sahibliyi edəcək.

BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun multikulturalizm dəyərlərinin təzahürü olduğunu deyən Prezident İlham Əliyev vurğuladı ki, dünyanın siyasi xadimləri bu müsbət dinamikaya dəstək verməlidirlər. Azərbaycanın bir çox beynəlxalq təşkilatlarda fəal iştirak etdiyini, 2011-ci ildə ölkəmizin 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildiyini deyən dövlətimizin başçısı ötən dövrdə Azərbaycanın müstəqil xarici siyasət yürütdüyünü, regional inkişafa töhfə verdiyini, müstəqillik illərində mühüm dövlət təsisatlarının formalaşdığını, bütün azadlıqların təmin edildiyini, siyasi və iqtisadi islahatların aparıldığını diqqətə çatdırdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən danışan Prezident İlham Əliyev Ermənistanın ölkəmizin BMT tərəfindən tanınan ərazi bütövlüyünü pozduğunu, Dağlıq Qarabağı və ətraf rayonları işğal etdiyini dedi, xalqımızın etnik təmizləməyə məruz qaldığını, Xocalı soyqırımının törədildiyini, bir milyondan çox insanın qaçqın və məcburi köçkünə çevrildiyini, işğal olunan ərazilərdə hər şeyin dağıdıldığını bildirdi. "Ermənistan BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması ilə bağlı qətnamələrinə məhəl qoymur", - deyən dövlətimizin başçısı vurğuladı ki, məsələnin həlli ilə əlaqədar Ermənistana beynəlxalq təzyiq göstərilməli, münaqişə beynəlxalq hüququn normaları çərçivəsində nizama salınmalıdır.

Prezident İlham Əliyev onu da dedi ki, ölkəmiz inkişaf edir. Son illərdə işsizliyin və yoxsulluğun azaldılması ilə bağlı ciddi tədbirlər görülüb, təhsil və səhiyyə problemləri uğurla həll olunub, gender bərabərliyinin təmin olunması, ekoloji problemlərin həlli istiqamətində tədbirlər həyata keçirilib. Ölkəmizin nəhəng enerji və nəqliyyat layihələrinin müəllifi və iştirakçısı olduğunu deyən Prezident İlham Əliyev çıxışının sonunda Forumun işinə uğurlar arzuladı.

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir bu Forumu qəbul etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi. Azərbaycan Prezidentinin bu məsələ ilə bağlı liderliyini xüsusi qeyd edən Əl-Nasir bildirdi ki, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi dünya xalqları arasında münasibətlərin möhkəmləndirilməsi yolunda mühüm addımdır. Ona görə də Bakı bu tədbirin keçirilməsi üçün ən münasib yerdir.

BMT-nin baş katibi Pan Gi Mun videomüraciətində Bakıda bu tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi. Hazırda dünyanın və insanların ciddi böhranlar dövrü yaşadığını deyən baş katib ayrı-seçkiliyin və təcridolunmanın yalnız ekstremist arzuların yayılmasına xidmət etdiyini dedi və bu problemlərin həllində bütün cəmiyyətləri birgə səy göstərməyə çağırdı. Bu dəfəki Forumun mövzusunun BMT-nin 2030-cu ilədək elan etdiyi məqsədlərə uyğun olduğunu deyən Pan Gi Mun diqqəti bütün münaqişələrin sülh yolu ilə həllinin vacibliyinə cəlb etdi.

İspaniyanın xarici işlər naziri Xose Manuel Qarsia Marqallo göstərilən qonaqpərvərliyə və yüksək təşkilatçılığa görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Bakının böyük İpək Yolu üzərində yerləşməklə əsrlər boyu ideyalar mübadiləsi və ticarət mərkəzi rolunu oynadığını deyən nazir bu baxımdan Azərbaycan paytaxtını bütün dövrlərin informasiya mərkəzi kimi xarakterizə etdi və bu səbəbdən Forumun burada təşkilinin təbii olduğunu dedi. "Sivilizasiyaların müxtəlifliyi və çoxmədəniyyətlilik insan üçün danılmaz gücdür", - deyən İspaniya xarici siyasət idarəsinin rəhbəri terrorizm, ksenofobiya, zorakı ekstremizm kimi təhdidlərin qarşısının alınması ilə bağlı daha geniş tədbirlərin görülməsinin vacibliyini vurğuladı.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan növbəti dəfə Bakıya gəlməkdən məmnun olduğunu deyərək bu Forumun 2016-cı ilin "Multikulturalizm ili" elan edilən Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxundu. Hazırda Sivilizasiyalar Alyansının BMT-nin ən önəmli qurumlarından birinə çevrildiyini deyən Türkiyə Prezidenti Alyansın məqsədlərinə nail olunması istiqamətində görülən işlərin hələ də yetərli olmadığını bildirdi. Qeyd etdi ki, dünyanın müxtəlif yerlərində baş verən qanlı toqquşmalar və terror aktları hələ də bizə çox işləməyin vacibliyini xatırladır. O, dünyada İslam dininə qarşı yönələn yanlış fikirlərin və təhdidlərin yolverilməz olduğunu, terror təşkilatlarını İslamla əlaqələndirməyin qətiyyən doğru olmadığını diqqətə çatdırdı. Rəcəb Tayyib Ərdoğan dedi ki, bütün təhdidlərin qarşısı ancaq ortaq mübarizə sayəsində alına bilər və terrora qarşı qlobal mübarizə günümüzün ən vacib məsələlərindən biridir.

Türkiyə dövlətinin başçısı çıxışının sonunda Forumun işinə uğurlar arzuladı.

Forumun işi plenar və bölmə iclasları, BMT-nin Sivilizasiyalar Alyansının yüksək səviyyəli toplantısı ilə davam etdirilib.

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



Aprelin 23-də Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov kütləvi informasiya vasitələrində öncədən verilmiş elana uyğun olaraq, Əlahiddə Çevik Polis Alayında DİN-in Baş İdarə, İdarə və ərazi polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti, həmçinin "İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli Fərmanının icrası çərçivəsində mülki işçi vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Aidiyyəti Baş İdarə, İdarə və xidmət rəislərinin də iştirak etdikləri tədbirdə nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti və dünyagörüşü ilə maraqlanıb. Təxminən 1500 iddiaçının sıralarından daha hazırlıqlı olan 400 nəfər polisin sıravi və kiçik rəis heyəti, o cümlədən Daxili Qoşunların sıralarında xidmətə, 120 gənc isə mülki işçi vəzifələrinə namizəd kimi seçilərək sənədlərinin hazırlanması üçün müvafiq göstəriş verilib.

Sonra namizədlər qarşısında çıxış edən nazir Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mükəmməl təhsil almış, yüksək intellektə malik gənclərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün tövsiyə və tapşırıqlarını xatırladıb, bu istiqamətdə hər zaman zəruri addımların atıldığını vurğulayıb.

Sonda cənab Ramil Usubov gələcək çətin, lakin şərəfli xidmətlərində gənclərə uğurlar arzulayıb və əmin olduğunu bildirib ki, onlar daxili işlər orqanlarında mövcud olan ən yaxşı ənənələri davam etdirəcək, qarşıya qoyulan bütün tapşırıqları və vəzifələri yüksək məsuliyyətlə yerinə yetirəcək, cinayətkarlığa qarşı qətiyyətlə mübarizə aparacaq, Vətəninə, xalqına və Prezidentinə sədaqətlə xidmət edəcəklər.

# DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNDƏ PAKİSTANIN MİLLİ MÜDAFİƏ UNİVERSİTETİNİN RƏHBƏR HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

***Aprelin 27-də Pakistan İslam Respublikasının Milli Müdafiə Universitetinin rəhbər heyəti və "Milli Təhlükəsizlik və Müharibə kursu"nun 17 nəfər dinləyicisi Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbində olub.***



Qonaqları səmimi salamlayan Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov Pakistan İslam Respublikası ilə ölkəmiz arasında mövcud dostluq münasibətlərindən söz açaraq, əməkdaşlığın bir çox istiqamətlərdə uğurla həyata keçirildiyini diqqətə çatdırıb.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə iki ölkənin müvafiq qurumları arasında hərbi-texniki əməkdaşlıq münasibətlərinin bu gün uğurla davam etdirildiyi vurğulanıb.

Daha sonra qonaqlara Daxili Qoşunların tarixi, döyüş və inkişaf yolu, qəhrəmanlıq nümunələri, qoşunların bugünkü inkişafı, eləcə də Ali Hərbi Məktəbdə təlim-tədrisin təşkili, kursantlar üçün yaradılmış hərtərəfli şərait barədə ətraflı məlumat verilib.

Səmimi və qonaqpərvər qəbul üçün təşəkkürünü bildirən Milli Müdafiə Universitetinin İdarə heyətinin rəis müavini Camal Şah Məhəmməd qarşılıqlı dostluq və əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Görüşün sonunda qonaqlarla xatirə şəkli çəkilib.

**Mətbuat xidməti**

# ALİ HƏRBİ MƏKTƏBİN İLDÖNÜMÜ YÜKSƏK SƏVİYYƏDƏ QEYD OLUNUB

*Bu münasibətlə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun şəxsi heyətə ünvanladığı təbrik məktubunda Ali Hərbi Məktəbin bundan sonra da dövlət və dövlətçiliyimizə sadiq qalaraq, qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəyinə, yeni-yeni nailiyyətlərə imza atacağına əminlik ifadə olunub.*

**Aprelin 16-da Daxili Qoşunların Ali Hərbi Məktəbinin yaranmasının 10-cu ildönümü münasibətilə təntənəli yubiley mərasimi keçirilib.**





Tədbirdə Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov, Daxili Qoşunların veteranı, Ali Hərbi Məktəbin müəllimi, ehtiyatda olan polkovnik-leytenant Səfxan Bayramov, Daxili Qoşunların Baş İdarəsinin Mənəvi-psixoloji hazırlıq şöbəsində hüquq xidmətinin rəisi polkovnik-leytenant Zahid Əliyev, müəllim heyəti və kursantlar iştirak ediblər.

Mərasim Döyüş Bayrağının sıra meydanına gətirilməsi ilə başlayıb. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Sonra təbrik üçün söz Ali Hərbi Məktəbin rəisinə verilib. Şəxsi heyəti 10 illik yubiley münasibətilə təbrik edən general-mayor İ.Məmmədov 2006-cı ildə Ali Hərbi Məktəbin fəaliyyətə başlamasını Daxili Qoşunların inkişafına təkan verən amil kimi qiymətləndirərək, onun bu illər ərzində zəngin tarixi inkişaf yolu keçdiyini, kadr potensialının bu gün yüksək səviyyədə olduğunu diqqətə çatdırıb.

O, həmçinin Daxili Qoşunların ali təhsilli, peşəkar kadrlara olan ehtiyacını nəzərə alaraq, akademiyanın yaradılmasına görə Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, eləcə də Daxili İşlər Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Qeyd olunub ki, ölkəmizin müharibə şəraitində yaşadığı bir zamanda savadlı zabitlərin yetişdirilməsi ən ümdə vəzifələrdən biridir. Çünki bu günün hər bir kursantı gələcəkdə vətənin, dövlətin müdafiəçisidir.

Daxili Qoşunların veteranları adından çıxış edən S.Bayramov da şəxsi heyəti əlamətdar gün münasibətilə təbrik edib. Əsas vəzifəsi savadlı və vətənpərvər kadrları yetişdirməkdən ibarət olan Məktəbdə bu gün zabit və gizirlərin ixtisaslarının artırılması, elmi-tədqiqat işlərinin aparılmasının uğurla həyata keçirildiyini vurğulayıb.

Daha sonra şəxsi heyətə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun təbrik məktubu çatdırılıb.

Təbrikdə 10 il şərəfli yol keçən Ali Hərbi Məktəbin şəxsi heyətinin hər zaman cənab Ali Baş Komandanın ideya və prinsiplərinə sadiq olduğu qeyd olunub. Eyni zamanda, pedaqoji kollektivin gənc kursantların hərbi vətənpərvərlik ruhunda tərbiyəsində böyük zəhmətinin olduğu vurğulanıb. Məktəbin bundan sonra da dövlət və dövlətçiliyimizə sadiq qalaraq, qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəyinə, yeni-yeni nailiyyətlərə imza atacağına əminlik ifadə olunub.

Tədbirdə xidməti vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan, yüksək hərbi intizam nümayiş etdirən bir qrup hərbi qulluqçuya Ali hərbi Məktəbin yaranmasının 10 illik yubileyi münasibətilə məktəb rəisi tərəfindən fərman və mükafatlar təqdim olunub.

Mərasim şəxsi heyətin təntənəli keçidindən sonra Daxili Qoşunların Nümunəvi-Göstərici Hərbi Orkestrinin ifasında bayram konserti ilə davam edib.

**leytenant N.Ağayeva**

***Aprelin 22-də yeniyetmə və gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi işinin gücləndirilməsi, məktəblilərin hərbi xidmətə hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə Daxili Qoşunların 99713 saylı hərbi hissəsində Binəqədi rayon orta ümumtəhsil məktəblərinin şagirdlərinin iştirakı ilə "Şahin" hərbi-idman oyununun rayon mərhələsi keçirilib.***

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ordu quruculuğuna xüsusi diqqət və qayğı göstərildiyini bildirib. Qeyd edib ki, xüsusilə gənclərin hərbi hazırlıq səviyyəsinin gücləndirilməsi, onlara hərbi-vətənpərvərlik hisslərinin aşılanması və təbliği məsələləri dövlətimizin gənclər siyasətində mühüm yer tutur. Bu cür yarışların keçirilməsi yeni-



## GƏNC NƏSLİN HƏRBİ-VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏ EDİLMƏSİ DAİM DİQQƏT MƏRKƏZİNDƏDİR

Tədbirdə Binəqədi rayon İcra Hakimiyyəti (RİH) başçısının müavini Vüsar İsmayılov, Daxili Qoşunların Baş İdarəsində Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Binəqədi rayon İdarəsinin rəisi polkovnik-leytenant Mehman Qurbanov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəis müavini Aydın Yusifov, Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov, Binəqədi RİH başçısının Biləcəri qəsəbəsi inzibati ərazi dairəsi üzrə nümayəndəsi İbad İbrahimov, məktəb direktorları, hərbi hazırlıq və fiziki tərbiyə müəllimləri iştirak ediblər.

Tədbirdə çıxış edən V.İsmayılov yetmələrin və gənclərin ordu sıralarında hərbi xidmətə hazırlanmasına təkan verir.

Sonra rayon üzrə ümumilikdə 32 orta ümumtəhsil məktəbinin 400-dən çox şagirdi arasında yarışlara start verilib. Yarışlarda komandalar fiziki hazırlıq, maneənin keçilməsi, mülki müdafiə hazırlığı, tullanma, qaçış, çətin maneələri aşma kimi mərhələlərdə öz qüvvələrini sınayıblar.

Yarışın nəticələrinə görə Binəqədi rayonu 100 nömrəli tam orta məktəbin komandası 1-ci, 182 nömrəli tam orta məktəbin komandası 2-ci, 157 nömrəli tam orta məktəbin komandası isə 3-cü yerə layiq görülüb.

# HƏRBİ HİSSƏ QARŞIYA QOYULMUŞ TAPŞIRIQLARI YERİNƏ YETİRMƏYƏ TAM HAZIRDIR

## *Şəxsi heyətin hərtərəfli hazırlığı bunu deməyə əsas verir*

**Ayın əvvəlində Silahlı Qüvvələrimizin təmas xəttində həyata keçirdiyi uğurlu əməliyyatlar nəticəsində düşmən təxribatının qarşısı qətiyyətlə alınmış, eyni zamanda bir neçə strateji mövqe ələ keçirilmişdir. Bu qalibiyyət düşmənə öz yerini göstərməklə bərabər, Silahlı Qüvvələrimizin Cənubi Qafqazın ən güclü ordusu olduğunu bir daha sübut etdi.**

Düşmən üzərində qazanılan uğurlu əməliyyat regionda Daxili Qoşunların 16077 saylı hərbi hissəsinin şəxsi heyətində də böyük ruh yüksəkliyi yaratmışdı. Orada xidməti-ezamiyyətdə olarkən bunun bir daha şahidi oldum.

"Hərbi hissənin şəxsi heyəti torpaqlarımızın azadlığı uğrunda hər an döyüşə atılmağa və qarşı-



ya qoyulmuş bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməyə qadirdir" - bu fikirləri hərbi hissə komandiri polkovnik Məzahir Ağayev səsləndirdi. O, şəxsi heyətin fiziki və atəş hazırlığının, o cümlədən hərbi qulluqçuların mənəvi-psixoloji durumlarının yüksək səviyyədə olduğunu da diqqətə çatdırdı.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Əli Qasımov isə hərbi qulluqçularda ruh yüksəkliyinin, vətənpərvərlik hislərinin artırılması üçün bütün lazımi tədbirlərin həyata keçirildiyini bildirdi. Qeyd etdi ki, hərbi qulluqçularla tərbiyə işi müvafiq rəhbəredici sənədlərin tələbləri əsasında aparılır.

### MƏŞĞƏLƏLƏR ŞƏXSİ HEYƏTİN BİLİK VƏ BACARIĞININ ARTIRILMASINA TƏKAN VERİR

Düşmənin zirehli texnikasının, sığınacaqlarının, helikopterlərinin məhv edilərək piyada bölmələrin maneəsiz irəliləməsinə şərait yaratmaq artilleriya divizionunun tank əleyhinə batareyasının əsas vəzifələrindəndir. Piyadalara atəş dəstəyini təmin etmək, mühəndis qurğularının sıradan çıxartmaq da batereyanın üzərinə düşən tapşırıqlardandır. Tank əleyhinə batareya komandiri leytenant Seymur Mehralıyev hərbi qulluqçularların bilik və bacarıqlarının, habelə peşə vərdişlərinin artırılması üçün görülən işlərdən bəhs etdi. O, bu baxımdan keçirilən məşğələlərin əhəmiyyətini xüsusilə vurğuladı. Bildirdi ki, məşğələlərdə təlim qurğusu üzərində tank əleyhinə idarə olunan raket sisteminin təyinatı, taktiki-texniki xüsusiyyətləri, istifadə qaydaları öyrədilir. Kompyuter təlim-məşq aparatlarında isə gecə və gündüz atəşlərin aparılması, raketin lazer vasitəsilə idarə olunması və hədəfin məhv edilməsi praktiki olaraq məşq etdirilir. Leytenant S.Mehralıyevin sözlərinə görə, təlim-məşq aparatlarında sistemin məhv edə biləcəyi bütün növ hədəflər mövcuddur və bu da tank əleyhinə idarə olunan raket sistemindən istifadə bacarığının artırılmasına təkan verir.



O, məşğələlərdə fəal iştirak edən hərbi qulluqçulardan heyət rəisi baş çavuş Zülfi İbadovun, heyət nəfərləri əsgər Tərxan Novruzovun və əsgər Nurlan Məmmədovun adlarını çəkdi.



### DÖYÜŞ ƏZMİNİN, DÖYÜŞ QABİLİYYƏTİNİN YÜKSƏK OLDUĞU PEŞƏKAR DƏSTƏ

Hərbi hissənin digər əhəmiyyətli bölmələrindən biri də xüsusi təyinatlı dəstədir. Dəstənin əsas vəzifələrindən biri də arama fəaliyyətidir ki, bu barədə dəstə komandiri kapitan Şixamir Qaflanov ətraflı məlumat verdi. Dəstə komandiri qeyd edilən tapşırığın yerinə yetirilməsi istiqamətində şəxsi heyətlə praktik təlimlərin keçirildiyini diqqətə çatdırdı. O, ərazi axtarışında mağara və ya bir kəndə yaxınlaşma, meşəlikdən açıq əraziyə çıxma, düşmənlə təmasın yüksək olduğu hədəfə yaxınlaşma və ya ərazi quruluşuna görə bəzən hədəfə daxil olma manevrlərini, o cümlədən gecə şərtlərində və dar cığırlarda istifadə olunan yürüşlərin (atıcı zəncir düzəni, kama düzülüşü, atıcı qol düzülüşü) mütəmadi olaraq məşq etdirildiyini bildirdi. Kapitan Ş.Qaflanov qarşıya qoyulan tapşırıqların yüksək məsuliyyət tələb etdiyini vurğulayaraq, şəxsi heyətin bilik və bacarıqlarının artırılmasının vacib amil olduğunu söylədi. Döyüş əzminin, döyüş qabiliyyətinin yüksək olduğu dəstədə peşəkarlıqları ilə seçilən hərbi qulluqçulardan qrup komandiri gizir Dəyanət Allahyarovun, yarımqrup komandiri baş çavuş Yasin Qasımovun, atıcı-sanitar baş çavuş Oruc Bağırovun, atıcı çavuş Anar Əliyevin adlarını qeyd etdi.

### HİSSƏNİN DÖYÜŞ HAZIRLIĞI MÜHAFİZƏ VƏ MÜDAFİƏDƏN BAŞLAYIR

Hərbi hissənin döyüş hazırlığının göstəricisi ilk növbədə onun mühafizə və müdafiəsindən başlayır. Bu baxımdan bir qədər də hərbi hissənin mühafizəsini həyata keçirən qarovul xidməti barədə məlumat vermək istərdim. Ko-



mendant bölüyünün komandiri baş leytenant Akim Hüseynov döyüş xidmətinə cəlb olunan şəxsi heyətlə aparılan iş metodikasından danışdı. O, əsgərlərlə kollektiv, eləcə də fərdi söhbətlərin aparıldığını dedi: "Döyüş postunda olduqları üçün təbii ki, onların fiziki göstəriciləri və atəş hazırlığı diqqət mərkəzində saxlanılır. Onlar tez-tez idman məşğələlərinə də cəlb olunurlar".

Xidmətdə olan şəxsi heyətin asudə vaxtının səmərəli keçirilməsinin vacib olduğunu deyən baş leytenant A.Hüseynov bu işdə bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Eyvaz Zərbəliyevin və taqım komandiri leytenant Qulu Quliyevin əməyini qeyd etdi.

Fəal qarovul nəfərlərindən baş əsgər Nicat Ağarzayevin, əsgərlər Nurlan Məmmədovun, Sergey Fadayevin, Elnur Paşayevin adlarını sadalamağı da unutmadı.

### ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunlar Komandanlığının əsas diqqət mərkəzində saxladığı sahələrdən biri də hərbi qulluqçuların səhhətidir ki, hərbi hissənin tibb personalı bunun da öhdəsindən layiqincə gəlir. Tibb xidmətinin rəisi tibb xidməti mayoru Sadəttin Bəkirov şəxsi he-



yətin sağlamlığının qorunmasında əlindən gələni əsirgəmir.

O, şəxsi heyətin sağlamlığının qorunması, o cümlədən mövsümi xəstəliklərin qarşısını almaq üçün davamlı olaraq profilaktik tədbirlərin həyata keçirildiyini söylədi. Belə ki, hər həftənin cümə axşamı günü hissənin komandir heyəti ilə müvafiq mövzuda məşğələlər keçirilir. Hərbi qulluqçuların gigiyena qaydalarına ciddi əməl etmələri barədə tapşırıqlar verilir. Bundan əlavə, hər həftənin şənbə günü əsgər kazarmalarına həkim baxışı keçirilir, sanitar vəziyyət yoxlanılır. Bölmələrdə mütəmadi olaraq dezinfeksiya işləri aparılır.

Bir sözlə, şəxsi heyətin hərtərəfli hazırlığı deməyə əsas verir ki, hərbi hissə qarşıya qoyulmuş bütün tapşırıqları layiqincə yerinə yetirməyə tam hazırdır.

**baş leytenant T.Əlizadə**



*Şəhidlərimiz*

# AZƏRBAYCAN QADINI - HƏM ANA, HƏM QƏHRƏMANDIR!

***Azərbaycan qadını hər zaman öz müdrikliyi, sədaqəti, qəhrəmanlığı, cəsarəti və analıq keyfiyyətləri ilə xalqımızın adını uca tutub. Demək olar ki, tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsində qadınlarımız yaxından iştirak ediblər. Məhz buna görə də onların bir çoxunun adları Azərbaycan tarixinin səhifələrinə qızıl hərflərlə yazılıb.***

***XX əsrin sonlarında-torpaqlarımız erməni daşnaklarının təcavüzünə məruz qalanda igid oğullarımızla bərabər Vətənimizin mərd qızları da silaha sarılaraq, mənfur düşmənə qarşı qəhrəmancasına vuruşmuş və onların bir çoxu bu müqəddəs amal uğrunda həyatlarını qurban verərək, şəhidlik zirvəsinə yüksəlmişlər...***



NƏSİBOVA MƏLAHƏT ƏNVƏR QIZI

***Şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman qadınlarımızdan ikisi məhz Daxili Qoşunların əməkdaşları olmuşdur. Onlar sıravi Könül Qəhrəmanova və mülki işçi Məlahət Nəsibovadır. Bu sayımızda Məlahət Nəsibova haqqında məlumat verəcəyik.***

Məlahət Ənvər qızı Nəsibova 1953-cü il martın 30-da Şəmkir rayonunun Zəyəm kəndində anadan olub. Orta təhsilini Zəyəm kənd məktəbində alıb. Sonra Bakıdakı Yüngül Sənaye Texnikumunu bitirən Məlahət 1970-ci ildə doğma rayonuna qayıdaraq, orta-ixtisaslı mütəxəssis kimi əmək fəaliyyətinə başlayıb. Bir müddət sonra yenidən paytaxta qayıdaraq Bakıxanov adına tikiş fabrikində işləyib.

XX əsrin sonlarında respublikamızın səmasını bürüyən qara buludlar bu vətənpərvər el qızının da taleyində yeni bir mərhələnin əsasını qoydu...

Bu barədə jurnalist Firuzə Bəyməmmədqızının "Vağzalı çalınır..." adlı kitabında yer alan "Biri var idi, biri yox idi..." başlıqlı məqaləsində maraqlı məlumatlar dərc olunub: *"...1988-ci il. Azadlıq aşiqləri kimi o da xalqımızın 70 illik köləliyinə dözmədi. Mübarizə meydanına atıldı. Azadlıq meydanında döyülənlər, əzilənlər sırasında Məlahət də var idi.*

*1990-cı ilin 20 yanvarı. O dəhşətli, qan qoxuyan, ürəkləri donduran gecə. Doğma Bakımızın küçələrinə o cəsur qızın da al qanı hopdu. Düşmən gülləsi 20 yanvardan ikinci dərəcəli əlil olan Məlahətin əzmini qıra bilmədi".*

Müəllif, həmçinin, məqaləsində Məlahətin ermənilərin nankorluğuna dözə bilmədiyini, həmişə bütün varlığı ilə Qarabağa - döyüş meydanına can atdığını qeyd edərək, şəhid olmuş rəfiqəsinin vətənpərvərliyi ilə qürur duyduğunu bildirir: *"Biz həmişə birlikdə idik. İkimiz də Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətinin üzvü idik. Cəmiyyətin xətti ilə qaçqınlara əl tutur, onlardan heç bir yardımı əsirgəmirdik. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında da bir yerdə idik. Təlimatçı işləyirdik.*

*Avqustun 1-də Bakıxanov adına tikiş fabrikinin nümayəndələri Ağdam-Tərtər cəbhəsində döyüşən əsgərlərə yardım apararkən Məlahət onları müşayiət edirdi.*

*Səhər saat 7-də mən onları fabrikin qarşısından yola saldım. Nədənsə Məlahət çox həyəcanlı idi. Elə bil ki, şəhid olacağı ürəyinə dammışdı. Mən onunla sağollaşarkən o, mənə baxdı, gözləri doldu, dedi: "Firuzə, mən geri ancaq şəhid kimi qayıdacam. Səndən son xahişim budur ki, qəbrimin üstünə əsgər paltarında olan şəklimi vurasan"* (Müəllifin bu məqaləsi həmçinin "Ana gözü həsrətli qaldı" başlığı ilə "Əsgər" qəzetinin 02.02.1993-cü il tarixli sayında və T.Məmmədovanın müəllifi olduğu "Oğullar verir ki, can, yaşasın Azərbaycan" adlı kitabında dərc edilmişdir - A.Ə.).

Məlahət yardım aparanlarla geri dönmür, öz istəyi ilə ön cəbhədə qalaraq, igid oğullarımızla birgə erməni daşnaklarına qarşı vuruşmağı qərara alır.

**2 avqust 1992-ci il.** Ağdərə rayonunun Drambon kəndinin (indiki Kəlbəcər rayonunun Heyvalı kəndi - A.Ə.) düşməndən azad edilməsi uğrunda gedən döyüşdə Məlahət Nəsibova qəhrəmancasına həlak olur.

Vaxtı ilə Ağdərə cəbhəsində gedən ağır döyüşlərdə "leytenant" hərbi rütbəsində tağım komandiri kimi erməni daşnaklarına qarşı mərdliklə vuruşmuş Rəsul Vəliyev (hazırda Daxili Qoşunların veteranı, ehtiyatda olan polkovnik - A.Ə.) Məlahət xanımın mərdliyini və vətənpərvərliyini heç zaman unutmayacağını deyir: "1992-ci ilin isti yay günlərindən biri idi. Məlahət xanım yardım gətirən mülki vətəndaşlarla birgə cəbhə bölgəsinə gəlmişdi. O zaman bizim qərargahımız Ağdərə rayonunda Ortakənddəki məktəbdə yerləşirdi. Yardım gətirən heyət qayıtsa da, Məlahət xanım burada qalmaq üçün təkid edərək, bizimlə birgə döyüşlərdə iştirak etmək arzusunda olduğunu bildirdi.

Səhəri gün bölmələrimiz müxtəlif istiqamətlərdən düşmənin nəzarətində olan Drambon kəndinə hücum etməyə hazırlaşırdı. Bu vaxt Məlahət xanım da döyüşçülərimizlə birgə bu əməliyyatda iştirak etmək istədiyini bildirdi. Düzü, qadın olduğu üçün onun bu döyüşdə iştirak etməsinə heç kim razı deyildi. Lakin buna baxmayaraq Məlahət xanımı bu inadından döndərmək mümkün olmadı. Beləliklə, o, Eynullanın (kapitan rütbəsində olan bu zabitin soyadını unutduğunu deyir – A.Ə.) komandirlik etdiyi taqımın tərkibində Drambon kəndinin düşmən qüvvələrindən təmizlənməsi əməliyyatlarında iştirak edir. Az keçmir ki, hücuma keçən bölmələrimiz erməni daşnakları tərəfindən güclü minamyot atəşinə məruz qalır. Bu döyüşdə Məlahət xanım və bir neçə döyüşçü yoldaşımız qəhrəmancasına şəhid oldu..."

Məlahət Nəsibova 1992-ci il avqustun 18-də Bakıdakı Şəhidlər Xiyabanında dəfn olunub.

Zaur və Ramin adlı iki övladı yadigar qalıb. Şəhid M.Nəsibova artıq həm də nənədir. Onun Göyçək, Məlahət, Hüseyn, Zübeydə və Dilşad adlı nəvələri də var. Onlar Tomris, Həcər və Nigar qeyrətli nənələri ilə qürur duyurlar. Hər il oğlanları, gəlinləri və nəvələri onun doğum günündə və şəhid olduğu gün Şəhidlər Xiyabanına gələrək, Vətənimizin qəhrəman qızını ziyarət edir, məzarı üzərinə tər qərənfillər düzürlər.



Bu gün Zaur qəhrəman anasının timsalında Vətənimizin şəhid olmuş bütün qeyrətli oğul və qızları ilə qürur duyduğunu deyir: *"Anam Vətənimiz, müqəddəs torpaqlarımız yolunda şəhid oldu. Erməni qaniçənlərinin Xocalıda və digər sərhəd bölgələrimizdə törətdiyi vəhşiliklərə heç cür dözə bilmirdi. Ona görə də cəbhə bölgəsində qalaraq, döyüşməyə qərar vermişdi.*

*Nə deyim, o, mənim təkcə anam yox, həm atam, həm də arxam-dayağım idi. Anam şəhid olanda mən Politexnik Texnikumunun birinci kursunda təhsil alırdım. Şəhid olandan sonra ona məxsus olan "Quran" kitabını və oğlanlarına yazdığı məktubunu evimizə gətirmişdilər. Məktubunda anam Vətənimizi öz canından və hətta öz övladlarından da çox sevdiyini, bu yolda sonadək mübarizə aparacağını qeyd etmişdi. Əlilliyə görə aldığı müavinətini də anam hər ay aparıb öz ata-baba ocağını məcburi tərk edərək Şuşadan Bakıya pənah gətirmiş aztəminatlı ailəyə yardım olaraq verirdi. Biz bu barədə ancaq anam dünyasını dəyişdikdən sonra onun yas mərasimində iştirak etmək üçün gəlmiş o ailənin dilindən eşitdik. Mən və qardaşım Ramin anamızın əsl vətənpərvər, əsl vətəndaş olması ilə ancaq fəxr edir və qürur hissi duyuruq".*

Məlumat üçün qeyd edək ki, Məlahət xanımın həyat və döyüş yolu barədə məlumatlara həmçinin görkəmli ziyalımız Bənövşə Eyyubovanın 1997-ci ildə Bakıda nəşr olunan və Suraxanı şəhidlərindən bəhs edən "Qırmızı qan" adlı kitabında yer alan "Qəhrəman qadın" başlıqlı məqaləsində rast gəlmək olar.

Bundan əlavə, M.Nəsibovanın adı qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə "1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"nda 79-cu sıra nömrəsi ilə Daxili Qoşunların Baş İdarəsinin mülki işçisi kimi 02.08.1992-ci il tarixdə Ağdərədə şəhid olması qeyd olunmuşdur.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**kapitan A.Əhmədov,**
**Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri**

# YOL-NƏQLİYYAT HADİSƏLƏRİNİN PROFİLAKTİKASI ÜZRƏ TƏDBİRLƏR MÜTƏMADİ OLARAQ DAVAM ETDİRİLİR

**Ölkəmizdə demək olar ki, hər gün, hətta hər saat paytaxt və respublikanın magistral yollarında müxtəlif yol-nəqliyyat hadisələri baş verir. Artıq bütün dünyada, o cümlədən Azərbaycanda da bu cür qəzaların ağırlıq dərəcəsinin aşağı salınması məqsədilə dövlət səviyyəsində müxtəlif profilaktik tədbirlər həyata keçirilməkdədir.**

*Ümumiyyətlə, yol-nəqliyyat hadisələri dedikdə, hərəkətdə olan bir nəqliyyat vasitəsinin iştirakı ilə baş vermiş, insanların həlak olması və ya bədən xəsarəti alması ilə, yaxud nəqliyyat vasitələrinin, yüklərin, yolların, yol və digər qurğuların və ya hər hansı bir başqa əmlakın zədələnməsi ilə nəticələnən hadisələr nəzərdə tutulur. Toqquşma, aşma, basma və s. kimi hadisələri buna aid etmək olar.*

Daxili Qoşunların Komandanlığı da bu istiqamətdə qabaqlayıcı tədbirlərin görülməsi məqsədilə cavabdeh vəzifəli şəxslər qarşısında müvafiq tapşırıqlar qoyub. Belə ki, qoşunların sürücü heyəti və fərdi nəqliyyat vasitələrinin sahibləri ilə "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin öyrənilməsi, habelə yol-nəqliyyat hadisələrinin qarşısının alınması və onların ağırlıq dərəcəsinin aşağı salınması üçün kompleks tədbirlərin həyata keçirilməsi məqsədilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının və Daxili Qoşunlar Komandanının müavini-Maddi-texniki təminat İdarəsi rəisinin əmr və göstərişləri hazırlanaraq, Ali Hərbi Məktəbə və hərbi hissələrə göndərilmişdir.

Görülən bu və digər profilaktik tədbirlər haqqında məlumat almaq üçün Avtomobil və zirehli texnika şöbəsinin rəisi polkovnik Fuad Alıyevə müraciət etdik. Polkovnik F.Alıyev ilk olaraq bildirdi ki, adətən yol-nəqliyyat hadisələrinin baş verməsinin səbəbi sürücülərdən, piyada və sərnişinlərin davranışından, nəqliyyat vasitələrinin vəziyyətindən və yol şəraitindən asılı olaraq dəyişə bilər: "Məsələn, sürücü yol hərəkəti qaydalarına əməl etmədikdə və ya diqqətsiz, yorğun, xəstə, əzgin halda, habelə təcrübəsiz olduqda, nəqliyyat vasitəsini sərxoş, diqqəti və çevikliyi azaldan dərman, yaxud narkotik vasitələrin təsiri altında idarə etdikdə bu kimi xoşagəlməz hallar baş verir. Bəzi hallarda isə piyadaların yol hərəkəti qaydalarına riayət etməmələri qeyd olunan halların baş verməsinə gətirib çıxarır".

Məhz bu səbəblər və onların yaranmasına imkan verən amillər aşkarlandıqdan sonra yol-nəqliyyat hadisələrinin qarşısını almaq məqsədi ilə əməli tədbirlər planı işlənib hazırlanır, onların vaxtında və keyfiyyətlə həyata keçirilməsinə xüsusi diqqət yetirilir.

Ümumilikdə, son illərdə yol-nəqliyyat hadisələrinin profilaktikası sahəsində görülən işlər baş verəcək hadisələrin və onların ağırlıq dərəcəsinin, eləcə də qəza nəticəsində ölən və yaralananların sayının azalmasına müsbət təsir göstərir.

Daxili Qoşunların hərbi hissələrində bu istiqamətdə tədbirlər əsasən "Daxili Qoşunlarda Avtomobil xidmətinin təşkilinə dair Təlimat"ın müvafiq maddələrinin tələblərinə əsasən həyata keçirilir. Bunun üçün ilk olaraq hissə və bölmələrdə möhkəm qayda-qanunun saxlanmasına, texnikaya təhkim edilmiş şəxsi heyətə yüksək məsuliyyət hissinin aşılanmasına diqqət yetirilir, mütəmadi olaraq maşınların istismar və yol hərəkəti qaydalarının öyrədilməsi üçün məşğələlər keçirilir.

Bundan başqa, polkovnik F.Alıyev sürücülərin tələblərə uyğun seçilməsinin qəzaların azaldılmasında ən vacib məqamlardan biri olduğunu qeyd etdi. Bildirdi ki, sürücülər nəqliyyat vasitələrinə təyin olunarkən onların praktiki idarəetmə qabiliyyəti və mənəvi-psixoloji hazırlığı yoxlanılır. İntizamsız, ixtisas hazırlığı aşağı səviyyədə olan sürücülər nəqliyyat vasitəsini idarə etməkdən dərhal kənarlaşdırılırlar.

Seçilən sürücülərin sürücülük mədəniyyətinin yüksəldilməsinə də xüsusi önəm verilir. Bunun üçün mütəmadi olaraq onların biliklərinin təkmilləşdirilməsi məqsədilə məşğələlər keçirilir. Eyni zamanda, təhkim edilmiş nəqliyyat vasitələrində daşınan yükün növünü nəzərə alaraq, onun təhlükəsizliyinin təmin edilməsi üçün məsuliyyət hissinin yüksəldilməsinə yönəldilmiş tərbiyə işi aparılır. Bundan əlavə, nəqliyyat vasitəsi xəttə çıxmamışdan əvvəl nəzarət-texniki məntəqələrində onların texniki cəhətdən sazlığı yoxlanılır, sürücülərlə təlimatlar keçirilir, hava və yol şəraiti barədə məlumat, həmçinin nəqliyyat vasitəsinin müəyyən edilmiş sürət həddindən artıq olmayan sürətlə idarə olunması, avtomobil hərəkətdə olarkən təhlükəsizlik kəmərlərindən istifadə edilməsi barədə müvafiq tapşırıqlar verilir.

Bundan başqa, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə sürücü vəzifəsinə təyin olunan hərbi qulluqçulardan əlavə, fərdi nəqliyyat vasitələrinin sahibləri, eləcə də piyada qismində hərəkətdə olan digər hərbi qulluqçularla da "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinin öyrənilməsi üçün müvafiq tədbirlər görülür. Belə ki, dövlət yol polisinin Bakı şəhərində və regionlarda yerləşən şöbələrinin vəzifəli şəxslərinin iştirakı ilə nəqliyyat vasitələrinə baxışlar keçirilir, şəxsi heyətlə məşğələlər təşkil olunaraq, qanunvericiliyə edilmiş əlavə və dəyişikliklər barədə hərbi qulluqçulara və sürücü heyətinə məlumatlar çatdırılır. Həmçinin, piyada hərbi qulluqçular arasında maarifləndirmə işləri aparılır, mütəmadi olaraq yol hərəkəti qaydalarına və işıqforun komandalarına düzgün riayət edilməsi barədə şəxsi heyətə tapşırıqlar verilir.

Göründüyü kimi, qoşunlarda yol-nəqliyyat hadisələrinin qarşısının maksimum dərəcədə alınması üçün məsul vəzifəli şəxslər tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsi davam etdirilməkdədir. Lakin görülən işlərlə kifayətlənmək olmaz. Bu işdə hamı birlikdə yol hərəkəti qaydalarının pozulmasına qarşı mübarizə aparmalıdır.

**leytenant X.Tağıyeva**

# MƏKTƏBLİLƏR DAXİLİ QOŞUNLARIN MUZEYİ İLƏ TANIŞ OLUBLAR



***Aprelin 23-də paytaxtın Suraxanı rayonunda yerləşən Kamal Məmmədov adına 209 nömrəli tam orta məktəbin şagirdləri tanışlıq məqsədi ilə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində olublar.***

Görüşdə döyüşçü-şair, "Qızıl qələm" mükafatı laureatı, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, pedaqoq Elxan Xəzər də iştirak edib.

Daxili Qoşunların Baş İdarəsinin Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri kapitan Anar Əhmədov qonaqları muzeydə Daxili Qoşunların tarixini əks etdirən eksponatlarla tanış edib. Onlara qoşunların yaranma tarixi, döyüş yolu, şəhid hərbi qulluqçuları, Milli Qəhrəmanları, həmçinin beynəlxalq hərbi əməkdaşlıq əlaqələri haqqında ətraflı məlumat verib.

Muzeyin birinci mərtəbəsində qonaqlara xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Daxili Qoşunların ilk döyüşə başladığı gün - 12 mart tarixinin Daxili Qoşunlar günü kimi qeyd olunması barədə fərmanı, Daxili Qoşunların vəzifələri əks olunmuş lövhələr, qaya parçaları üzərində şəxsi heyətin döyüş əməliyyatlarında istifadə etdiyi silahlar, eləcə də qoşunların iştirak etdiyi bölgələrin göstərildiyi kompozisiyalar nümayiş etdirilib.

Daxili Qoşunların Beynəlxalq əlaqələrinə həsr edilmiş tədbirlər və görüşləri əks etdirən fotoşəkillər, beynəlxaq təşkilatlar tərəfindən verilmiş eksponatlar, Ulu Öndərin Azərbaycan-Türkiyə qardaşlıq, dostluq əlaqələri barədə söylədiyi fikirlər, tövsiyələr də qonaqlar tərəfindən maraqla qarşılanıb.

Şagirdlər daha sonra ikinci mərtəbədə yerləşən zalda Ümummilli Lider Heydər Əliyev və Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi diqqət və qayğını əks etdirən guşə ilə tanış olublar.

Qonaqlar hərbi hissədən xoş təəssüratlarla ayrılıb.

Qeyd edək ki, həmin gün Daxili Qoşunların sıralarına yeni qəbul olunmuş əsgərlər də muzeylə tanış olublar.

**leytenant X.Tağıyeva**